# Azərbaycanın təhlükəsizlik missiyası

**Prezident İlham Əliyevin Sülh Şurasının iclasında iştirak üçün ABŞ Prezidenti Donald Tramp tərəfindən Vaşinqtona dəvət olunması dövlətimizin başçısının dünyada olan nüfuzunun, ona göstərilən etimadın daha bir nümunəsidir.**

Xatırladaq ki, Donald Trampın dəvəti ilə Azərbaycan həm də bu Sülh Şurasının təsisçi üzv dövlətlərindən biridir. Bu da ölkəmizin Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasına göstərdiyi səylər, Cənubi Qafqaza sülhün, sabitliyin gətirilməsi istiqamətində davamlı konstruktiv addımları ilə bağlıdır. Azərbaycan qlobal sülhə nail olunmasına əməli töhfələr verir. Ölkələr arasında əməkdaşlığın inkişafı, mehriban qonşuluq və dostluq əlaqələrinin qurulması, təhlükəsizlik mühitinin formalaşdırılması, bir sözlə, bəşəri əmin-amanlığın yaranması üçün mühüm çağırışlar edir və bu istiqamətdə təsirli addımlar atır.

Milli Məclisin deputatı Müşfiq Məmmədli qəzetimizə açıqlamasında bildirib ki, Prezidentin Sülh Şurasının iclasında iştirak məqsədilə ABŞ-yə səfərinin siyasi mənası ilk növbədə Azərbaycanın regional gündəmdən çıxaraq qlobal sülh və təhlükəsizlik müzakirələrinin fəal iştirakçısına çevrildiyini göstərir. Birincisi, bu cür platformalarda dövlət başçısının şəxsən iştirakı iki əsas mesaj verir: Azərbaycan artıq təkcə regionda deyil, daha geniş coğrafiyada sülh təşəbbüsləri irəli sürən və dialoq təşviq edən aktor kimi qəbul olunmaq istəyir. İkincisi, Bakı öz siyasi xəttini yalnız ikitərəfli münasibətlər çərçivəsində deyil, çoxtərəfli institutlar və beynəlxalq mexanizmlər vasitəsilə də möhkəmləndirir. Ümumilikdə Azərbaycanın Sülh Şurasında yer alması ölkəmizin növbəti uğurudur".



Deputat qeyd edib ki, Azərbaycanın Sülh Şurasında təsisçi qismində iştirakı bir neçə mühüm məqamla izah olunur və strateji mənası var. Birincisi, Azərbaycan postmünaqişə reallığını yaşamış ölkə kimi sülhün yalnız siyasi şüar deyil, real dövlət siyasəti olduğunu nümayiş etdirməyə çalışır. İkincisi, bu status Bakıya, sadəcə, iştirakçı deyil, gündəliyin formalaşmasında söz sahibi olan tərəf kimi çıxış etmək imkanı verir. Üçüncüsü, Azərbaycanın son illərdə apardığı siyasət göstərir ki, ölkə regional təhlükəsizlik mövzularını qlobal müzakirələrə çıxarmağı, xüsusən də Cənubi Qafqazda formalaşan yeni reallıqları beynəlxalq auditoriyaya birbaşa təqdim etməyi prioritet hesab edir.

M.Məmmədlinin fikrincə, Prezidentin bu səfərinin əsas mahiyyəti Azərbaycanın özünü münaqişə gündəliyindən çıxmış, sülh quruculuğu və dialoq təşəbbüsləri irəli sürən, beynəlxalq sülh mexanizmlərinin formalaşmasında rol almağa hazır dövlət kimi təqdim etməsidir: "Bu, həm də Azərbaycanın xarici siyasətində müşahidə olunan yeni mərhələnin - regional liderlikdən qlobal diplomatik aktivliyə keçidin açıq göstəricisi kimi qiymətləndirilə bilər. Bütün mövcud geosiyasi reallıqlar Azərbaycanın son illərdə formalaşdırdığı diplomatik xətt baxımından qiymətləndirilə bilər".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan. - 2026.- 24 fevral (№35).- S.4.